# Xəzərin sahilində möhtəşəm festival



**Bakıda yenə də əfsanəvi festival ovqatı hökm sürür. Artıq bir neçə gündür ki, Xəzər dənizinin sahilində, açıq havada – "Sea Breeze" ("Dəniz mehi") istirahət mərkəzində "Dream Fest – 2024" Beynəlxalq Musiqi Festivalı davam edir.**

Tərcümədə arzu, xəyal mənası verən "Dream Fest"də səslənən musiqilərin tərcüməçiyə ehtiyacı yoxdur. Bu, sözün əsl mənasında, dəniz mehinə qarışıb-qaynayan nəğməli könül duyğularıdır. Musiqi bayramının təşkilatçısı və təşəbbüskarı – bəstəkar, müğənni, Azərbaycanın Xalq artisti Emin Ağalarov əvvəlcədən bildirmişdi ki, "Dream Fest" Xəzərin sahilində keçirilən əfsanəvi musiqi təqdimatlarının ab-havasını saxlamaqla yanaşı, ifaçı ölkələrin coğrafiyasını qlobal miqyasda genişləndirəcək.

Budur, festivalda əksəriyyəti postsovet məkanından, eləcə də Türkiyə, Böyük Britaniya, Kanada və digər ölkələrdən Bakıya qonaq gəlmiş 100-dən çox musiqiçinin çıxışı böyük maraqla izlənilir. Onların arasında Rusiyada fəaliyyət göstərən azərbaycanlı müğənni Jony (Cahid Hüseynli), həmçinin Xalq artistləri Aygün Kazımova, Emin, isveçli müğənni Bosson, rusiyalı sənətçi Ani Lorak, Azərbaycan əsilli Qazaxıstan müğənnisi Jah Khalib (Bəxtiyar Hüseynov), Mot (Matvey Melnikov) və başqaları var. MDB ölkələri arasında "Ən yaxşı remiks" nominasiyası üzrə "Qremmi" mükafatını alan ilk musiqiçi qazax İmanbek Zeikenov (DJ İmanbek) da "Dream Fest"in iştirakçısıdır.

Artıq neçə gündür ki, "Sea Breeze" istirahət mərkəzində bir neçə nəsil musiqiçilər populyar mahnılarla, hitlərlə mavi Xəzəri salamlayırlar. Festivalda səhnə alan hər bir ifaçı seyrçilərə zövq verməyə, burada keçirilən hər anı mənalı etməyə çalışır. Festivalda belə bir qeyri-rəsmi şüar da yaranıb və dillərdə gəzir: "Musiqidə ən yaxşı nə varsa, ənənəvi olaraq yayda Xəzər sahilində yaranır".

Festival gözəlliklərindən zövq alan seyrçilərin təəssüratları ilə də maraqlandıq. Onlardan biri – qardaş Türkiyədən növbəti dəfə Bakıya istirahətə gəlmiş İbrahim Arslanoğlu suala həvəslə cavab verərək bildirdi:

– Bura, həqiqətən də, Avropa səviyyəli infrastruktura malik dənizkənarı premium istirahət kompleksidir. Əvvəllər də bu ecazkar məkan belə gözəl performansların meydanı olub. İndi yenə də parlaq musiqi hadisəsinin şahidiyik.

Sumqayıtlı Turan Məmmədov isə dedi:

– Bu gözəl məkan Mayami, Antalya, Dubay kimi mədəni istirahət üçün əvəzsiz yer olmaqla bərabər, Azərbaycanın qeyri-neft sektorunun inkişafını göstərən çoxsaylı ünvanlardan biridir. Bir vaxtlar baxımsız olan Nardaran tərəflərdə bu qızmar günlərdə belə bir yerdə dincəlmək və dünya musiqi ulduzlarının ifalarına şahid olmaq adama unudulmaz təsir bağışlayır. Təşkilatçılara minnətdarıq!

Qeyd edək ki, televiziya tamaşaçılarının da ekran versiyasına baxaraq özlərini tədbirin birbaşa iştirakçıları kimi hiss edə bildikləri "Dream Fest" bu gün axşam yekunlaşacaq və canlı musiqi həvəskarları üçün şirin xatirəyə dönəcək.

***Ə.DOSTƏLİ***
***XQ***

Xalq qəzeti .- 2024.- 28 iyul (№ 158).- S.10.